# Qazaxda Birinci Qarabağ müharibəsi şəhidinin xatirəsinə bulaq inşa edilib

Qarabağ müharibəsi başlayandan Ermənistanla 168 kilometr sərhədi olan Qazaxda 344 nəfər Vətən oğlu şəhid olub. Onlardan 7 nəfəri Azərbaycanın Milli Qəhrəmanıdır.



Vətənin dar günündə döyüşə atılan Qazaxın mərd oğulları 44 günlük Vətən müharibəsində də əsl qəhrəmanlıq nümayiş etdiriblər. Haqq savaşında rayonun 52 qəhrəman oğlu Vətənin bütövlüyü uğrunda canından keçib.

Rayonun Ağköynək kəndi hər zaman qeyrətli oğulları ilə tanınıb. Bu kəndin igid oğulları istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçməyi hər zaman gözə almış, həmin yolda ən uca məqama yüksəlmişlər.

Belə oğullardan biri də Süleymanov Fazil Süleyman oğludur. Rayonun digər şəhidləri kimi, Fazilin də xatirəsi rayonda əziz tutulur və onun xatirəsinin əbədiləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu günlər igid Vətən oğlunun xatirəsinə inşa edilmiş bulağın açılışı olmuşdur. Kənd sakinləri ilə yanaşı, rayon ictimaiyyəti nümayəndələrinin də iştirak etdikləri açılış mərasimində çıxış edənlər Fazil Süleymanovun keçdiyi qısa, lakin mənalı ömür yolundan danışmış, onun torpaqlarımızın düşməndən azad olunmasında göstərdiyi igidliklərdən söhbət açmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 15 noyabr.- S.10.